

# Musiqi əsərinin öyrənilməsinin ilkin mərhələsinə dair

**Pedaqoji metodika anlayışı professional fəaliyyət üçün zəruri olan, müəllimin tələbəyə aşıladığı bilik, bacarıq və vərdişlərdən ibarət kompleks üsullardır. Bu üsulların müxtəlifliyi isə müəllimin istedadı və təcrübəsi ilə sıx bağlıdır.**

Yeni musiqi üzərində işə başlamazdan əvvəl müəllim, əsərin quruluşu, janr xüsusiyyəti, bədii ifadəliliyi, frazirovkası və s. musiqi qanunları ilə tələbəni bir daha tanış etməli, tələbədə yaradıcı əhval-ruhiyyə oyatmalıdır. Bu vaxt bəstəkarın nəzərdə tutduğu ideyanı əsas tutaraq ifaçılıq məsələlərinə toxunmaq vacibdir.

Dahi pianoçu və pedaqoq N.İqumnovun təbirincə desək: "Yeni musiqi əsərinin ilk ifası hər şeydən əvvəl ifaçının ən səmimi hisslərinə toxunur, başqa cəhətlər isə sonra öz-özlüyündə üzə çıxır".

Yeni musiqi əsəri üzərində iş not üzündən oxuma ilə başlayır. Not üzündən oxuma nədir? Bu musiqi əsəri ilə tanışlıq, daha doğrusu səthi tanışlıqdır. Bu ilkin təəssüratların düzgün istiqamətə yönəldilməsinin əhəmiyyəti böyükdür. O mənada ki, musiqi əsərinin ilkin öyrənmə mərhələsi iş prosesinin əsas hissəsini təşkil edir və əvvəlcədən əsər düzgün yığılarsa, sonra səhv notların, işarələrin düzəlişinə vaxt itməyəcək.

Bu işdə müəllimin rolu böyükdür. Müəllim bilməlidir ki, musiqi əsərini not üzündən oxuma və onun ilkin öyrənilmə prosesində edilən diqqətsizliklər, tələbənin vaxtından əvvəl sərbəst fəaliyyəti həmin əsər üzərində gələcək iş prosesini ləngidə bilər. Bəzi tələbələr musiqi əsərini not üzündən oxuyarkən mütəmadi olaraq eyni səhvləri buraxır.

Bunlar əsasən applikatura, düzgün olmayan notlar və ölçü ilə bağlı səhvlər olur. Bu zaman müəllimdən tələb olunan əsas vəzifələrdən biri, tələbənin nəzəri bilikləri və musiqi qabiliyyətinin inkişafı üzərində işin gücləndirilməsidir. Müəllim tələbəyə düzgün applika-

turanın məntiqi tərəfini aşılamalıdır. Not üzündən oxuyarkən, nəzər-diqqəti eyni zamanda bir neçə məqam üzərində saxlamaq tələbə üçün bir qədər mürəkkəb məsələdir. Lakin not üzündən oxumanın əsas məğzini elə diqqətin bu istiqamətə yönəldilməsi təşkil edir. Bu, ifaçıda tələb olunan məsələyə kompleks yanaşmanı tərbiyə edir. Burada ifaçı üçün ən vacib keyfiyyətlərdən biri olan, hər an öz ifasını nəzarət altında saxlamaq keyfiyyətini formalaşdırır.

Musiqi əsərini not üzündən oxuyarkən, ifaçı əsasən əsərin əsas məqamlarına fikir verir. Buna görə də ikinci dərəcəli səslər, akkordun tərkibindəki bəzi səslər, dinamik işarələr ifaçının nəzər-diqqətindən yayınır. Musiqi əsərini not üzündən oxuyarkən, onu imkan daxilində hazır vəziyyətə yaxın, dayanmadan ifa etmək lazımdır. Bundan fərqli olaraq əsəri öyrənərkən ifaçı qarşısına başqa məqsəd qoymalıdır. Əsər haqqında ümumi təsəvvür yaranandan sonra, burada ən xırda detallardan tutmuş, musiqinin ümumi obraz xəttinə qədər nəzərdən yayınmamalıdır. Əsərdə, müəllif tərəfindən qeyd olunmuş göstəricilər- applikatura, ştrixlər, hər bir səsaltı gedişat diqqət mərkəzində olmalıdır.

Musiqi əsərini not üzərindən oxumanın əsas şərtlərindən biri, not mətnini, ifa olunduğu xanədən bir neçə xanə qarşıda olan mətni duymaq və görməkdir. İfaçı əsəri not üzündən ifa edərkən mümkün qədər gözünü not vərəqindən çəkməmək, yəni əllərinə və klaviaturaya baxmadan çalmaq vərdişinə yiyələnir. Bu da musiqi əsərini dayanmadan, bütövlükdə ifa etmək imkanı yaradır, yəni musiqi əsərinin məntiqi qavranması asanlaşır.

Musiqi əsərini not üzündən oxuyarkən əvvəl əsər sakit tempdə çalınır, çünki ifaçının bu tempdə not mətnində yazılmış hər bir nöqtəyə fikir vermək imkanı yaranır. Burada tez-tez əl saxlayıb daha mürəkkəb məqamları təkrar-təkrar ifa etmək lazımdır. Əlbəttə, çox şey ifaçının fərdi qabiliyyətindən asılıdır. Daha üstün musiqi qabiliyyəti olan ifaçı ola bilər ki, 2-ci, 3-cü ifadan sonra əsəri sərbəst, dayanmadan ifa etsin. Ümumiyyətlə not üzündən oxuma prosesi ifaçıda emosional hisslər yaradır, onun musiqi dünyagörüşünü genişləndirir, musiqi təfəkkürünü və ümumi potensialını inkişaf etdirir.

Not üzündən oxuma zamanı müəllim tələbəni not üzündən oxuma metodikasının əsas prinsipləri ilə tanış etməli və not mətni üzərində yazılanları tələbəyə nəinki görməyi, mətnin melodik məzmununu "eşitməyi" aşılamalıdır. Qeyd olunan məqamlar hər an müəllimin diqqət mərkəzində olmalıdır. Təqdim olunan musiqi əsərinin forması və janrı tələbəyə mütləq aydınlaşdırılmalıdır. Bütün bunlarla yanaşı, əsərin ölçü və tonallığını təyin etmək vacibdir. Əsərin quruluşunu, melodik xəttini və s. ifaçı tam və aydın dərk etməli, daxilən əsəri eşitməlidir. Bu, ona əsərin xarakterini təsəvvür etməyə köməklik edə bilər.

Əsərlə təxmini tanışlıqdan sonra tələbə onu fortepianoda ifa etməyə çalışır, lakin əsər əvvəldən axıra qədər ifa oluna bilməz, onu mütləq hissələrə və mümkün qədər böyük parçalara bölmək lazımdır. Bu zaman musiqi cümləsinin, frazanın, musiqi fikrinin qırılmaması əsas şərtlərdən biridir. Yalnız bitkin bir musiqi fikrinin, melodik xəttin saxlanılması şərti ilə not üzündən oxuma prosesi, bu işə daxili məntiq və emosional rəngarənglik gətirə bilər.

Dünya fortepiano ifaçılığı təcrübəsində elə adlar vardır ki, onlar əsəri ilk dəfə royalın püpitri üzərinə qoyaraq elə çalıblar ki, sanki uzun müddət onun üzərində işləyiblər.

Belə bir fikir yürüdülür ki, öyrənməli əsər barədə kobud, səthi də olsa təsəvvür, heç bir təsəvvürün olmamasından yaxşıdır.

Dahi rus pianoçusu və pedaqoqu A.Yesipova not üzündən oxuma barədə belə bir fikirdə idi "səthi, təxmini eskiz xarakteri daşıyan ifa, ifaçını dilentatizmə, təxminiliyə, səliqəsiz ifaya öyrəşdirə bilər". Barenboym isə eskiz xarakterli ifaya xüsusi təlim fəaliyyəti kimi baxırdı.

O, belə hesab edirdi ki, bu fəaliyyət növü musiqi əsərinin not üzündən oxuma mərhələsi ilə tam öyrənilməmiş əsər arasında olan bir mərhələdir. Lakin hər iki metod ifaçıda bir çox vərdişlərin möhkəmlənməsinə tam mənada köməklik edir. Bir çox metodist müəllimlər isə, eskiz ifa zamanı musiqi əsərinin tələbə tərəfindən əzbər öyrənilməsini qəbul etmirlər. Burada yenə də təxmini ifa zamanı buraxılmış, bəzi ölçü, not və frazeoloji səhvlər nəzərdə tutulur.

**Lakin not üzündən oxuma musiqi əsərinin öyrənilməsinin ilkin mərhələsində çox qısa bir vaxt kəsiyi olduğundan bunun elə bir ciddi təhlükəsi yoxdur. Bu böyük bir yaradıcı işin başlanğıcıdır. Musiqi əsəri barədə onun bədii məzmunu, forma və janrı haqqında ümumi təsəvvür yaranandan sonra növbəti təlim metodlarına keçmək məsləhət görülür.**

● **Arzu RZAYEVA**